**A.Ə.Əliyeva**

**UOT:338.45; JEL: L19.**

# Bazar iqtisadiyyatı şəraitində sənaye müəssisələrinin rəqabətqabiliyyətinin yüksəldilməsi məsələləri

***Xülasə***

*Məqalədə müasir bazar iqtisadiyyatı şəraitində sənaye müəssisələrinin rəqabətqabiliyyətinin yüksəldilməsi məsələlərinə baxılmışdır. Aparılmış təhlillər göstərir ki, ölkəmizdə sənaye sahəsində beynəlxalq təcrübəyə əsaslanaraq aparılan davamlı islahatlar iqtisadi baxımdan çox səmərəli hesab olunur. Məqalədə eyni zamanda tədqiq olunan sahə üzrə mövcud problemlər təhlil olunmuş, onların aradan qaldırılması istiqamətində təklif və tövsiyələr irəli sürülmüşdür.*

***Açar sözlər:*** *sənaye, bazar iqtisadiyyatı, iqtisadi inkişaf, iqtisadi tənzimləmə, iqtisadi islahatlar, iqtisadi model, inteqrasiya*

## Giriş

Son illər davamlı olaraq iqtisadi islahatların təmini istiqamətində ölkə rəhbərliyi tərəfindən 2016-cı ildə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" Sərəncamına əsasən milli iqtisadiyyat və iqtisadiyyatın on bir sektoru üzrə ümumilikdə on iki strateji yol xəritəsi hazırlanmışdır ki, bunlar da beynəlxalq iqtisadi təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Nəzərə almaq lazımdır ki, strateji yol xəritələrinin icrasında başlıca məqsəd ölkəmizdə davamlı iqtisadi inkişafın saxlanılmasını, milli iqtisadiyyatın rəqabətqabiliyyətini təmin etmək hesab olunur. Ümumiyyətlə, on iki strateji yol xəritəsi neft-qaz, kənd təsərrüfatı, istehlak malları istehsalı, ağır sənaye və maşınqayırma, ixtisaslaşmış turizm, logistika və ticarət, əhalinin uyğun qiymətə mənzil təminatı, peşə təlimləri, maliyyə xidmətləri, telekommunikasiya və kommunal xidmətlər sahələrini əhatə edir. Müasir bazar iqtisadiyyatı şəraitində Azərbaycan Respublikası üzrə həyata keçirilməsi nəzərdə tutulan strateji yol xəritəsinin əsas istiqamətlərindən biri də qeyri-neft sənaye sektorunun rəqabətqabiliyyətinin yüksəldilməsidir. Azərbaycanda da aparılan davamlı iqtisadi islahatların əsas məqsədi dünya təcrübəsinin qabaqcıl nailiyyətlərinə əsaslanan, müasir innovasiyalı, yüksək inkişaf səviyyəsinə malik, rəqabətqabiliyyətli sənaye sahəsini formalaşdırmaqdır. Ölkədə fəaliyyət göstərən əksər sənaye müəssisələrinin istehsal xərcləri beynəlxalq bazar qiymətlərini üstələdiyindən yerli məhsullar rəqabətqabiliyyətini itirmiş, onların ixracyönümlülük imkanları azalmış, əksər müəssisələr isə öz fəaliyyətini dayandırmışdır. Müasir iqtisadi şəraitdə ölkəmiz qarşısında duran ən mühüm vəzifə sənaye müəssisələrinin rəqabətqabiliyyətinin yüksəldilməsini təmin etməkdir.

## Sənaye sektoru üzrə mövcud iqtisadi vəziyyətin dəyərləndirilməsi

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, hər hansı bir ölkədə reallaşdırılan iqtisadi islahatların uğuru, sənayenin normal fəaliyyəti ilə bağlıdır. Ölkənin iqtisadi potensialı onun sənaye kompleksinin inkişaf səviyyəsi ilə müəyyənləşir. Azərbaycanın sənaye müəssisələrinin inkişafının təmin edilməsi üçün mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmadan bütün müəssisə və təşkilatlara bərabər və əlverişli rəqabət mühiti yaradılmalı, azad rəqabət mühiti saxlanılmalı, yerli istehsalın inkişafı üçün əlverişli şərait formalaşdırılmalıdır [1]. Dövlətin sənaye siyasəti ölkənin sənaye potensialının effektiv istifadəsi və inkişaf

©A.Ə.Əliyeva AMEA İSİ, i.f.d, b.e.i.
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

etdirilməsinə yönəlməlidir. Müasir iqtisadi şəraitdə dövlətin sənaye siyasətinin əsas məqsədi beynəlxalq standartlara cavab verən yüksək innovasiyalı və rəqabətqabiliyyətli sənaye kompleksinin yaradılması olmalıdır. Müvafiq sənaye kompleksi ölkə iqtisadiyyatının beynəlxalq iqtisadi məkana inteqrasiyasını, milli iqtisadi təhlükəsizliyi həyata keçirməlidir. Araşdırmalar göstərir ki, sənaye kompleksinin dövlət tənzimlənməsi sistemi sənaye obyekti kimi üç tip müəssisələrin fəaliyyət göstərməsini nəzərə almaqla həyata keçirilməlidir:

- Yalnız birbaşa iqtisadi metodlarla tənzimlənən özəl müəssisələr;
- Dövlətin iştirakı ilə kommersiyalaşdırılmış müəssisələr;
- Dövlətin birbaşa tabeliyində olan tamamilə dövlət və büdcə təşkilatları.

Ümumiyyətlə, sənaye üzrə müəssisələrə yanaşmada dövlət idarəetmə orqanlarının əsas funksiyaları ilk növbədə dövlət ehtiyaclarının təmin olunması, məqsədli dövlət proqramlarının tərtibi və reallaşdırılması, sənaye siyasətinin prioritetlərinin müəyyənləşdirilməsi, sənaye kompleksinin fəaliyyətinin tənzimlənməsi olmalıdır. Sənaye müəssisələrinə birbaşa, dövlət yardımı prinsipləri yenidən araşdırılmalıdır. Nəzərdə tutulan dövlət yardımını iqtisadi baxımdan effektiv hesab olunan proqram və layihələr əsasında təmin etmək lazımdır. Ölkə üzrə əsas iqtisadi məsələlərdən biri də sənaye üzrə fəaliyyət göstərən müəssisələrin rəqabətqabiliyyətinin artırılması üçün onların fəaliyyət göstərdikləri iqtisadi mühitin sağlamlaşdırılmasıdır. Bu problemi həll etmədən sənaye müəssisələri üzrə əmtəə istehsalçılarının normal fəaliyyətini həyat keçirmək mümkün deyildir. Məhz bu baxımdan da dövlət sənaye siyasətinə maliyyə intizamının möhkəmləndirilməsi, antiinhisar siyasəti, amortizasiya, kredit, qiymət, vergi, büdcə ilə bağlı məsələlər də daxil olunmalıdır. Ümumiyyətlə, yaxın perspektiv dövr üçün milli sənaye siyasətinin ən mühüm istiqamətləri bunlar hesab olunmalıdır:



- Ölkə üzrə kiçik və orta sahibkarlıq timsalında sənaye müəssisələri üzrə istehsal və elmi-texniki potensialın, infrastrukturun saxlanması və inkişafını təmin edən şəraitin formalaşdırılması;
- Sənaye müəssisələrinin istehsal etdiyi əmtəə və xidmətlərə olan tələbatların təmin edilməsi;
- Yeni innovativ texnologiyalara malik sənaye müəssisələrinin yaradılmasının stimullaşdırılması.

Beynəlxalq təcrübə göstərir ki, sənaye siyasətinin əsas vəzifəsi sənaye müəssisələrinin səmərəliliyi, istehsal olunmuş innovativ sənaye məhsullarının daxili və xarici bazarda rəqabətqabiliyyətini artırmaqdan, o cümlədən onu daim inkişaf etdirməkdən ibarət olmalıdır. Ölkə üzrə sənaye sektoru çərçivəsində struktur islahatları məhsul həcminin ümumi artımında hasilat sahələrinin payının azalmasını və bununla yanaşı emal sahələrinin xüsusi çəkisinin artırılması zərurətini şərtləndirir. Bu strateji vəzifə zəruri xarici və daxili investisiyaların cəlb edilməsi hesabına yaxın perspektiv dövr ərzində reallaşdırıla bilər [2].

**Cədvəl 1.**

**Azərbaycan sənayesinin fəaliyyətini səciyyələndirən ümumi göstəricilər**

| | 2000 | 2005 | 2009 | 2010 | 2015 | 2017 |
|---|---|---|---|---|---|---|
| **Məhsulun həcmi (mln. manat)** | 3639 | 9309 | 22564 | 27978 | 35027 | **39892,5** |
| **Fəaliyyət göstərən müəssisələrinin sayı** | 1974 | 2621 | 2794 | 2650 | 2508 | **2582** |
| **İşçilərin orta illik sayı (mln. manat)** | 200,2 | 193,2 | 192,3 | 181,8 | 176,7 | **197,1** |

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Orta aylıq nominal əmək haqqı (manat)** | 87,2 | 196,9 | 412,4 | 451,8 | 518,6 | **969,2** |
| **Ölkə üzrə orta aylıq əmək haqqı ilə müqayisədə (%)** | 196,7 | 159,3 | 138,4 | 136,3 | 142,4 | **183,4** |
| **Əsas istehsal fondları (mln. manat)** | 7257 | 18225 | 34789 | 37248 | 41657 | **123371,1** |
| **Əlavə dəyər (mln. manat)** | 1699 | 6190 | 17490 | 21942 | 27909 | **28087** |
| **Əsas kapitala vəsaitlər (mln. manat)** | **670,1** | **41,76** | **3225** | **4276** | **5370** | **10610,1** |

Mənbə: www.stat.gov.az/pdf

**Şəkil 1.**

**Sənaye üzrə istehsal olunmuş məhsulun inkişaf dinamikası (mly.manat)**




Mənbə: www.stat.gov.az/pdf/

Cədvəl 1 və Şəkil 1-in məlumatlarının təhlilindən göründüyü kimi, əgər 2000-2005–ci illərdə ölkədə sənaye məhsulunun həcmi 2,6 dəfə, fəaliyyət göstərən müəssisələrin sayı 132,8 %, əsas fondların dəyəri 2,5 dəfə artmış və işçilərin orta illik sayı 3,5 % azalmışdır. 2005-2011-ci illərdə həmin göstəricilər uyğun olaraq: 3,8 dəfə, 95,7% ; 2,3 dəfə və 91,5 % olmuşdur. Deməli, sənaye məhsulunun artımı müəssisələrin və işçilərin sayı hesabına deyil, əsasən kapitalın (əsas fondların, investisiyaların) artımı hesabına təmin edilmişdir. 2016-ci ildə sənaye sahəsində istehsal olunmuş məhsulun həcmi 35027 mlyn. manat, 2017-ci ildə isə 39892,5 mln.manat olmuşdur. Sənaye sahəsində investisiyaların ölkə iqtisadiyyatında payı 2017-ci ildə 60,9 faiz olmuşdur. 2016-cı ildə sanaye sahəsi üzrə fəaliyyət müəssisələrin sayı 2508 olmuşdursa, 2017-ci ildə bu göstərici artaraq 2582-ə çatmışdır.Əvvəlki illərlə müqayisədə sənaye sahəsi üzrə əsas istehsal fondlarının dəyəri 2017-ci ildə artaraq artaraq 123371,1 mln. manat təşkil etmişdir [6]. İnkişaf etmiş ölkələrinin təcrübəsi onu göstərir ki, sənaye siyasətinin müəssisələr üzrə reallaşdırılması üçün aşağıdakı tədbirlər həyata keçirilməlidir:

- Mərkəz və regionlar üzrə sənaye müəssisələri çərçivəsində idarəetmə sisteminin təkmilləşdirilməsi;
- Daxili bazarda sənaye müəssisələrinin yerli sənaye məhsuluna olan tələbin gücləndirilməsi: Müsabiqə yolu ilə dövlət standartları, əmtəələrin reklamı, bazar infrastrukturunun və lizinq xidmətlərinin inkişaf etdirilməsi;



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- Yerli sənaye sahəsi üzrə fəaliyyət göstərən istehsalçıların fəaliyyətinin himayə olunmasını və daxili bazarda sənaye müəssisələri arasında sağlam rəqabət şəraitinin yaradılmasını təmin edən yüksək idxal tariflərinin formalaşdırılması;
- Regionlar üzrə müəssisələrin sənaye məhsullarının ixrac prosesinin kreditləşdirilməsi və sığortalanması sisteminin təşkili;
- Müəssisələrin rəqabətqabiliyyətinin yüksəldilməsi üçün ixracyönümlü məhsulun beynəlxalq sertifikatlaşdırılmasının təşkili.

Aparılmış təhlillər onu göstərir ki, rəqabətqabiliyyətlilik səviyyəsinə görə Azərbaycan sənaye müəssisələrini aşağıdakı kimi qruplaşdırılmaq mümkündür:

- Birinci qrupa sənayenin ixracyönümlü hasilat sahə müəssisələrini (neft və qaz hasilatı, neft emalı və s.) daxil etmək mümkündür. Müvafiq qrup üzrə sənaye siyasəti ilkin olaraq xarici strateji investorlara yönəlir.
- İkinci qrupa - texnoloji baxımından geridə qalmış, lakin daxili bazar üçün mühüm müəssisələr (nəqliyyat, kənd təsərrüfatı avadanlığı istehsal sahələr, yüngül və yeyinti sənayesi) daxildir. Qeyd olunan qrup üzrə sənaye siyasətinin əsas metodları qoruyucu idxal tariflərinin, eyni zamanda qeyri-tarif tənzimlənmələrinin tədqiqindən ibarətdir;
- Üçüncü qrupa, müasir elmi və innovativ texnoloji potensiala malik olan sahə müəssisələri (kimya və neft - kimya, metallurgiya, maşınqayırma sahələri üzrə) aiddir ki, bunlar da tezliklə rəqabətqabiliyyətli, ixraca yönəlik məhsul istehsalı üçün baza yarada bilər.



Göstərilən qrupların hər biri üçün dövlət yardımı, beynəlxalq təcrübə nəzərə alınmaqla milli iqtisadiyyatın inkişaf səviyyəsindən, xarici investorların həcm və şərtlərindən, yüksək səviyyəli biznes-planlardan asılı olaraq fərqlənməlidir. Beynəlxalq təcrübə onu göstərir ki, ölkəmizdə sənaye siyasətinin uğurla reallaşdırılması üçün əlverişli iqtisadi maliyyə sisteminin formalaşdırılması, müəssisələrin və vətəndaşların maliyyə vəsaiti hesabına sənaye potensialının modernləşdirilməsini stimullaşdıra bilən liberal kredit və vergi rejimlərinin yaradılması üzrə tədbirlər reallaşdırılmalıdır. Sənaye müəssisələrinin inkişafı üzrə nəzərdə tutulan siyasətin ən mühüm elementi olan xarici ticarət fəaliyyəti sahəsində strateji məqsəd ixracın strukturunun elm tutumlu, müasir innovasiyalı məhsulların xeyrinə (bura yüngül və yeyinti sənayesinin, aqrar sənaye kompleksinin son məhsulunun ixracının artırılması da daxildir) təkmilləşdirilməsindən ibarət olmalıdır. Onu da qeyd etmək lazımdır ki, xarici iqtisadi fəaliyyət sahəsində əsas prioritet milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin üstünlüklərindən istifadə etməklə, ölkənin dünya təsərrüfat sisteminə inteqrasiyasını reallaşdırmaqdır. Ümumiyyətlə, milli iqtisadi sahələrin üstünlüklərindən maksimum istifadəni təmin etməklə, ölkənin beynəlxalq iqtisadi məkana inteqrasiyanı reallaşdırmaq üçün aşağıdakı istiqamətdə tədbirlər reallaşdırılmalıdır:

- Milli sənayenin hasilat və emal müəssisələrinin ixrac potensialının himayə olunması, əldə olunan resurslardan daxili ehtiyaclar üçün istifadə olunması;
- Müəssisələr üzrə ixracyönümlü və idxalı əvəzləyən məhsullara vergi güzəştləri tətbiq edilməsi;
- Müəssisələr üzrə ixracın kreditləşdirilməsi və sığortalanması mexanizminin tətbiqi;
- İxracyönümlü müəssisələrə effektiv dövlət yardımının reallaşdırılması.

1995-ci ilin yanvarında imzalanmış Uruqvay Sazişindən sonra keçən illər ərzində Azərbaycan Respublikası ÜTT-na müşahidəçi statusunda qəbul olunmuşdur. ÜTT-na üzv qəbul olunmaq ilk növbədə ölkənin sənaye sektoru üzrə fəaliyyət göstərən müəssisələrinin ixrac bazarlarına, xüsusən, Avropa bazarlarını sərbəst çıxışını təmin edəcəkdir. Ölkəmizin ÜTT-na daxil olması üçün milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin və xarici iqtisadi

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

fəaliyyətinin tənzimlənməsi yönümündə müvafiq təşkilatın sazişlərinə uyğun olaraq, xüsusən, sənaye sektoru üzrə bir sıra qanunvericilik aktları, beynəlxalq standartlar, texniki reqlamentlər kimi normativ sənədlər qəbul etməsi zəruridir ki, bu istiqamətdə də bir sıra uğurlu tədbirlər həyata keçirilmişdir. Sənaye müəssisələri üzrə ixrac imkanlarının inkişaf etdirilməsi onun yeni istiqamətlərinin axtarışına, ixracatçılar üçün əlverişli şərait yaradılmasına kompleks yanaşmanı tələb edir. Bu zaman nəzərə almaq lazımdır ki, burada ticarət və onun himayə edilməsi siyasətinin işlənib hazırlanması zəruridir. Nəzər almaq lazımdır ki, ixraca yardım tədbirlərinin reallaşdırılması bütövlükdə milli iqtisadi sahələrin inkişafını təmin edir [5].

**Ölkədə sənaye sahəsi üzrə üzrə investisiya qoyuluşlarının cəlbi istiqamətində mövcud vəziyyətin dəyərləndirilməsi**

Ümumiyyətlə, müasir bazar münasibətləri şəraitində xarici iqtisadi əlaqələrin inkişafında qeydə alınan əsas tendensiya iqtisadi əməkdaşlığın yeni formalarının inkişafı prosesi ilə bağlıdır. Onlara aşağıdakıları göstərmək mümkündür:

- Sənaye sektoru üzrə iri istehsal korporasiyalarının yaradılması və inkişafı;
- Regionlarda sənaye sahələri üzrə birgə istehsal müəssisələrin formalaşdırılması;
- Xarici investorların investisiyalarının sənaye sahələri üzrə tətbiqinin genişləndirilməsi.

Nəzərə almaq lazımdır ki, sənaye sektoru üzrə xarici iqtisadi əlaqələri effektiv inkişaf etdirmək üçün davamlı tədbirlər reallaşdırımalıdır. Bunun üçün ilk növbədə sənaye sahələri üzrə ixrac üçün məhsul istehsalının təşkilinə və inkişafına şərait yaradılmalı, müasir innovativ texnologiyaların tətbiqi sürətləndirilməlidir. Azərbaycan Respublikasında sənaye sahələri üzrə yerli və xarici investisiyaların cəlb edilməsi bu sahələrin inkişafında əsas vasitədir. Sənaye sektoru üzrə investisiya qoyuluşlarında investisiyaların qeyri-kommmersiya risklərindən sığortası zəruridir. Araşdırmalar göstərir ki, yaxın perspektiv dövr ərzində Azərbaycan Respublikasında regionlar üzrə sənaye sahələrinin xarici investisiya qoyuluşlarının qanunvericilik bazası, beynəlxalq təcrübəyə əsaslanmaqla investisiyaların cəlbi haqqında qanunun, konsessiyalar haqqında, yeni azad iqtisadi zonaların yaradılması və fəaliyyətinin genişləndirilməsi haqqında qanunlar təkmilləşdirilməlidir. Ümumiyyətlə, aparılmış araşdırmalar göstərir ki, xarici investorların milli iqtisadiyyatın müxtəlif sahələri üzrə, xüsusən, sənaye sahələri üzrə investisiyaların vəziyyəti haqqında informasiya çıxış üçün Azərbaycan Respublikasında vahid informasiya mərkəzi yaratmaq zəruridir. Məhz bu qurum investisiya qoyulacaq obyektlər üzrə rəsmi formada ümumi təkliflər bankının formalaşdırılmasını təmin edə bilər. Nəzərə almaq lazımdır ki, ölkə üzrə əmanətlərin ümumi səviyyəsi vətəndaşların, təşkilatların və hökumətin əmanətləri səviyyəsindən asılıdır. Azərbaycan Respublikasında əmanətlərin həcmi bilavasitə milli iqtisadiyyat üzrə investisiyaların həcminə təsir edir. Vətəndaşlar öz cari gəlirinin bir hissəsini əmanət kimi yığırsa, bu o deməkdir ki, istehsalın bir hissəsi istehlaka deyil, investisiya yığımına yönəldilə bilər [2]. Son dövrlər Azərbaycan Respublikasında reallaşdırılan iqtisadi islahatlar, dövlətin iqtisadi siyasəti və onun tərkib hissəsi olan investisiya siyasəti milli iqtisadiyyatın inkişafında, makroiqtisadi göstəricilərin yüksəldilməsində mühüm rol oynayır. Lakin, qeyd olunanlardan başqa regionlar üzrə daxili və xarici investisiyaların istehsala cəlb olunması və onlardan effektiv istifadə sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi mühüm aktuallıq kəsb edir. Bununla yanaşı reallaşdırılacaq təşkilati tədbirlərin əsas prinsipləri bunlar hesab olunur:

- investisiya qoyuluşlarının maliyyə, valyuta, vergi, gömrük, tarif və qeyri-tarif tənzimlənməsi haqqında qanunvericilik aktlarının və digər normativ sənədlərin təkmilləşdirilməsi;



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- müxtəlif iqtisadi sahələr üzrə investisiyaları idarəetmə orqanlarının peşəkar idarəçilik sistemi və mexanizmlərinin mövcudluğu;
- investisiya qoyuluşu sahəsində hüquqi normativ sənədlərdə nəzərdə tutulan dəyişiliklər haqqında informasiyanın hazırlanması.

**Şəkil 2.**

**Sənaye üzrə yönələn investisiyaların iqtisadiyyatda payı (%)**




Mənbə: www.stat.gov.az/pdf



Son illər Azərbaycan sənayesinin fəaliyyətini xarakterizə edən ümumi göstəricilərdə də ciddi dəyişikliklər müşahidə olunmuşdur. 2009-cu ildə ölkə iqtisadiyyatı üzrə sənaye sahəsi üzrə yönələn investisiyaların həcmi 41.8%, 2015-ci və 2017-ci illərdə isə sənaye sahəsində yönələn investisiyaların payı artaraq 41,9 % və 60,9% təşkil etmişdir. Bu da sənaye sahəsinin dinamik inkişafını, artıq istehsal olunmuş sənaye məhsullarının ixracyönümlü olduğunu bir daha təsdiq edir [6]. Azərbaycan Respublikasında daxili və xarici investisiyaların sənaye sektoru üzrə cəlbinin stimullaşdırılması proqramının təşkilati-hüquqi təminatı qanunvericilik və hüquqi-normativ aktların qəbul edilməsinin mövcud sistemi əsasında təşəkkül tapır. Qeyd etmək lazımdır ki, beynəlxalq investisiya əməkdaşlığı sahəsində ölkə qanunlarında aşağıdakı prinsiplərin ilk növbədə nəzərə alınması zəruridir:

- Xarici investisiyaların strateji baxımdan mühüm sənaye sahələrinə cəlb olunmasında milli təhlükəsizliyin təmin olunması;
- Müsabiqə investisiya layihələri üzrə daxili və xarici investisiyaların cəlbinin yüksəldilməsi;
- Sənaye sahələri üzrə istehsal-investisiya əməkdaşlığı vasitəsilə dünya sisteminə inteqrasiyası.

Azərbaycan Respublikasının sənaye sektoru üzrə xarici investisiyaların cəlb olunmasını təmin etmək üçün investorlar güzəştli vergiqoyma və ikiqat vergiqoymadan azad etməklə, xarici investorların öz investisiyalarını sənaye sahələrinə yönəldilməsini stimullaşdırmaq mümkündür. Nəzərə almaq lazımdır ki, ölkənin davamlı iqtisadi inkişafının təmin olunması, onların digər ölkələrlə əməkdaşlıq sahələrinin yaxın perspektiv dövr üzrə iqtisadi, elmi-innovasiyalı, ekoloji proqramların əlaqələndirilməsi yolu ilə sənaye sahələri üzrə birgə müəssisələrin yaradılması və dövlətlərarası bazarın tənzimlənməsi, sosial problemlərin həlli və iqtisadi inkişaf fondlarının yaradılması yolu ilə genişləndirilməsindən birbaşa asılıdır. Azərbaycanda Respublikasında sənaye müəssisələrinə daxili investisiyaları cəlb etmək üçün kifayət qədər maliyyə resursları olmadığına görə ilk növbədə xarici investorların bu strateji sahəyə investisiya qoymalarına əlverişli şərait yaradılmalıdır. Məhz bu istiqamətdə atılan addımlar nəticəsində ayrı-ayrı sənaye sahələri üzrə istehsal proseslərini genişləndirmək, yerli

© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

və beynəlxalq bazarların tələblərinə müvafiq olaraq, beynəlxalq standartlara cavab verən, ixrac yönümlü, rəqabətqabiliyyətli məhsul istehsalını təmin etmək mümkündür.

**Ölkənin sənaye sahəsi üzrə investisiya qoyuluşlarının artırılması məsələləri**

Azəerbaycan Respublikasının dəstək verdiyi investisiya siyasəti ölkədə, həm xüsusi, həm də dövlət kapital qoyuluşlarının inkişafına ciddi təsir etmişdir. Dövlətin investisiya mühitinin rəsmi şəkildə formalaşdığını nəzərə alaraq, bu məsələlərin prioiritet siyahıda olduğunu görmək mümkündür. Son dövrlər Azərbaycan Respublikasının investisiya siyasətinin genişlənməsində müsbət meyllər qeydə alınmaqdadır. Belə ki, milli iqtisadiyyatın bütün sahələrində struktur dəyişikliləri həyata keçirilməklə, milli pulun məzənnəsi sabitləşməklə, bank faiz dərəcələri də azaldılmışdır. Ümumiyyətlə, inflyasiya səviyyəsinin azaldılması, faiz dərəcələrinin aşağı düşməsi investisiyaların cəlbinin və istehsalın artımının təmini kimi məsələlər iqtisadi sahələrin inkişafına müsbət təsir edir. Azərbaycan Respublikası üzrə sənaye sahələrinin inkişafı istiqamətində aşağıdakı tədbirlərin reallaşdırılması məqsədəuyğun hesab olunur:

- ✓ Sənaye sahələri üzrə investisiya layihələrinin birgə dövlət-kommersiya maliyyələşdirilməsi təcrübəsinin genişləndirilməsi;
- ✓ Xarici investorların sənaye sahələri üzrə cəlbini stimullaşdırmaq üçün hüquqi-normativ bazanın təkmilləşdirilməsi;
- ✓ Regionlar üzrə sənaye sahələrinin inkişafına yönəlmiş dövlət büdcəsi vəsaitinin məqsədli xərclənməsinə dövlət nəzarətinin artırılması.

Azərbaycan Respublikasının yaxın perspektiv dövr üçün nəzərdə tutulmuş iqtisadi proqnozlarına uyğun olaraq sənaye sahələri üzrə müsabiqə əsasında məhdud mərkəzləşdirilmiş kapital qoyuluşlarının yerləşdirilməsi, innovasiyalı-sənaye istehsal təyinatlı investisiya layihələri üzrə dövlət maliyyələşdirilməsi sisteminin tətbiqi;

Regionlar üzrə dövlət büdcəsindən mərkəzləşdirilmiş investisyalar hesabına müasir innovasiyalı sənaye müəssisələrinə dövlətin köməyinin artırılması.

**Nəticə**

Sənaye müəssisələri üzrə ixrac prosesini stimullaşdıran faktorların düzgün seçilməsi və ona regionlar üzrə səmərəli dəstək göstərən təsisatların yaradılması mühüm şərtdir. Araşdırmalar göstərir ki, ölkəmizdə xarici ticarətin əmtəə tərkibi müxtəlif deyildir. Ölkə üzrə ixrac prosesinin çox böyük hissəsi son illər enerji daşıyıcılarının və xammal təyinatlı məhsulların payına düşürsə, idxal prosesinin böyük hissəsi isə istehlak mallarının payına düşür. Yaranmış vəziyyət beynəlxalq əmək bölgüsü sistemində ölkəmizin milli iqtisadi sahələrinin rəqabətqabiliyyəti imkanlarını zəiflədir. Postsovet məkanı ölkələrinin təcrübəsi göstərir ki, milli iqtisadi sahələrin, o cümlədən sənaye sektoru üzrə fəaliyyət göstərən müəssisələrin ixrac məhsullarının beynəlxalq rəqabətqabiliyyətinin təmin olunması dünya təsərrüfat sisteminə daxil olmaq üçün mühüm şərtdir. Bundan başqa yerli sənaye müəssisələrinin istehsal etdiyi məhsulların daxili bazarda rəqabətə girməsi üçün davamlı tədbirlər reallaşdırılmalıdır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

## Ədəbiyyat

1. Şəkərəliyev A.S. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi, Bakı. İqtisad Universiteti, 2011.
2. Кузьмин Д.В. Национальная конкурентоспособность, глобальная нестабильность и макроэкономическое равновесие , Москва , Наука, 2018.
3. Бабашкина А.М. Государственное регулирование национальной экономики. Москва: Финансы и Статистика, 2017.
4. Инновации и экономический рост. К. М.: Наука, 2002.
5. Экономика. Москва.: Экономист, 2015.
6. www.stat.gov.az/pdf/Azərbaycanın statistik göstəriciləri 2018.
7. www.prezident.az/starteji yol xəritəsi/2016.

***А.А. Алиева***

***Промышленные предприятия в рыночной экономике вопросы конкурентоспособности***

***Резюме***

*В статье рассматривается конкурентоспособность промышленных предприятий в современной рыночной экономике. Проведенный анализ показывает, что устойчивые реформы в области международного опыта на основе нашей страны считаются экономически эффективными. В то же время в статье проанализированы существующие проблемы в данной области, а также внесены предложения и рекомендации по их устранению.*

***Ключевые слова:*** *промышленность, рыночная экономика, национальная экономика, экономическое развитие, экономическое регулирование, экономические реформы, экономическая модель, интеграция*



***A.A. Aliyeva***

***The problems increasing of competitiveness of industrial enterprises under the market economy condition***

***Summary***

*The article examines the competitiveness of industrial enterprises in the modern market economy. The carried out analysis shows that sustainable reforms in the field of international experience based on our country are considered economically efficient. At the same time, the article analyzed the existing problems in the field, and made suggestions and recommendations for their elimination.*

***Key words:*** *industry, market economy, national economy, economic development, economic regulation, economic reforms, economic model, integration*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub:14.05.2019.***
***Çapa qəbul olunub:17.05.2019.***

© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*